# Azərbaycanın yüksəliş salnaməsinin müəllifi

**Bu gün cənab İlham Əliyevin növbəti müddətə Azərbaycan Prezidenti seçilməsinin beşinci ili tamam olur. 2018-ci il aprelin 11-də keçirilən seçkilərdə xalqımız növbəti dəfə öz müdrik seçimini edərək inkişafı, quruculuğu, yüksək sosial rifahı təmin edən, Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən siyasi kursun davamına səs verdi. Seçkilərin nəticələri, namizədlərin topladıqları səslərin faizləri göstərdi ki, Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin siyasi kursunu qətiyyətlə davam etdirən, Ümummilli Liderin ideyalarının həyata keçməsini layiqincə təmin edən möhtərəm İlham Əliyevin ətrafında sıx səfərbərdir.**

Hər bir namizədin seçkilərdə uğur əldə etməsinin başlıca səbəblərindən biri onun müəyyən etdiyi siyasi və sosial-iqtisadi hədəflər, bununla bağlı seçicilərə təqdim etdiyi proqramdır. 2018-ci ilin prezident seçkilərində də İlham Əliyev öz platformasını təqdim etdi. Yeni Azərbaycan Partiyasının 2018-ci il fevralın 8-də keçirilən VI Qurultayında çıxış edən dövlət başçısı qarşıda duran bütün vəzifələrə, ayrı-ayrı məsələlərə toxunaraq bildirdi ki, gələcək inkişafımızla bağlı çox aydın təsəvvürümüz, proqramlarımız var. Azərbaycan növbəti illərdə öz uğurlu, dinamik inkişaf tempini nəinki saxlayacaq, onu daha da yüksəldəcəkdir. Təbii ki, dövlət başçısının qarşıdakı dövrdə hədəfləri seçkilərin nəticələrində rol oynayan amillərdən biri oldu.

Cənab İlham Əliyevin seçkilərdəki qələbəsini təmin edən ən əsas amillərdən biri də Azərbaycanın 2003-2018-ci illərdə keçdiyi dinamik inkişaf yolu oldu. Başqa cür desək, 2018-ci ilin seçkilərinə qədər 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan bütün uğurlar seçkinin nəticəsini müəyyən etdi. 2003-2018-ci illərdə əldə olunmuş göstəricilərin statistikasına nəzər salaq. Bu dövrdə ümumi daxili məhsul 3,2 dəfə, büdcə gəlirləri 13,5 dəfə, ölkənin strateji valyuta ehtiyatları 26,6 dəfə, xarici ticarət dövriyyəsi 4,6 dəfə, ixracın həcmi 6 dəfə, regionlarda ümumi məhsul buraxılışının artımı 3,6 dəfə, əhalinin nominal gəlirləri 8,6 dəfə, maaş və pensiyalar 8 dəfə, minimum əməkhaqqı 12,9 dəfə, əhalinin banklardakı əmanəti 30 dəfə artıb. Respublikamızda 2 milyona yaxın yeni iş yeri açılıb, işsizliyin səviyyəsi 9,2 faizdən 5 faizə, yoxsulluğun səviyyəsi 44,7 faizdən 5,4 faizə enib. Bu rəqəmlər 2003-2018-ci illərdə əldə olunan inkişaf statistikasının çox az bir qismini əhatə edir. Cəmi bir neçə rəqəmin fonunda aydın görünür ki, 15 ildə Azərbaycanın qazandığı uğurlar olduqca möhtəşəmdir.

Bununla yanaşı, Prezident İlham Əliyevin yürütdüyü müstəqil xarici siyasət, Azərbaycanın milli maraqlarını qətiyyətlə təmin etməsi, regionda liderlik statusunu möhkəmləndirməsi, qlobal enerji təhlükəsizliyi məsələsində söz sahibi olan dövlətə çevrilməsi əldə olunan digər uğurları tamamlayaraq ölkəmizin yüksəliş və uğur salnaməsinin ayrı-ayrı səhifələrini təşkil etdi. Bütün bunlar kompleks şəkildə 5 il əvvəl cənab İlham Əliyevin prezident seçkilərindəki qələbəsinin əsasında dayandı. Seçkilərin nəticələri isə xalqımızın mütləq əksəriyyətinin İlham Əliyevin ətrafında sıx həmrəyliyinin və öz rəhbərinin şəxsiyyyətinə, yüksək siyasi və liderlik keyfiyyətlərinə növbəti dəfə etimadının əyani təcəssümü oldu.

Seçkilərdən sonra, 2018-ci il aprelin 18-də keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev qarşıda duran vəzifələr barədə bir daha söz açdı: "…Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var".

Ötən 5 illik zaman kəsiyində qazandığımız uğurlar göstərir ki, Prezident İlham Əliyevin inkişaf strategiyasının nəticəsi kimi cəmiyyət həyatının bütün sahələrində əvvəlki illərdə baş verən keyfiyyət dəyişiklikləri davamlıdır və dövlət başçısının müəyyən etdiyi proqramlar, qarşıya qoyduğu məqsədlər sistemli şəkildə reallaşır. Ən mühümü də odur ki, bu məqsədlər vahid sahə üzrə yekunlaşmayaraq, kompleks xarakter daşıyır. Təsadüfi deyil ki, dövlət başçısının hələ andiçmə mərasimində anonsunu verdiyi islahatlar bütün sahələri əhatə edib. 2018-ci ildən sonra başlanan yeni islahatlar həm sosial, həm də iqtisadi sahələrdə böyük canlanma yaradıb, vətəndaş məmnuniyyətinin daha da yüksəlməsinə yol açıb. Yeni islahatların bir istiqaməti kimi idarəçilikdə həyata keçirilən dəyişikliklər, xüsusən gənc kadrlara etimad göstərilməsi və onların məsul vəzifələrdə irəli çəkilməsi də ötən 5 ilin uğurları sırasında yer alır.

"Cənub qaz dəhlizi" vasitəsilə respublikamızın Xəzərdən ixrac etdiyi təbii qazın Avropa bazarlarına çıxarılması, Azərbaycanın Qoşulmama Hərəkatına, Türk Dövlətləri Təşkilatına sədrliyi Prezident İlham Əliyevin ötən beş ildəki uğurları sırasında yer alan tarixi hadisələrdir. Bu dövrdə respublikamız qlobal bəlaya çevrilən COVID-19 pandemiyasının sınağından da layiqincə çıxıb. Prezident İlham Əliyevin pandemiya ilə mübarizədə beynəlxalq həmrəyliyi təmin etməsi bir daha onun yüksək liderlik keyfiyyətlərinin təcəssümü kimi tarixə düşdü.

Prezident İlham Əliyevin ötən 5 illik fəaliyyətinin ən böyük hadisəsi 2020-ci ilin Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsidir. Dövlət başçısı Vətən müharibəsinə qədər bütün çıxışlarında bəyan edirdi ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq, nəyin bahasına olursa-olsun torpaqlarını azad edəcəkdir. Cənab Prezident Azərbaycanı inkişaf etdirməklə, ordumuzun döyüş imkanlarını artırmaqla həm də torpaqlarımızın azad edilməsi üçün münbit şəraiti formalaşdırdı və Ermənistanın növbəti hərbi təxribatı bu tarixi missiyanın yerinə yetirilməsinə yol açdı.

Vətən müharibəsindəki zəfərin baş müəllifi olan cənab İlham Əliyevin qətiyyəti və iradəsi ilə Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işləri də ötən beş ilin qürurverici nailiyyətlərindən biridir. Prezident İlham Əliyev indi qurucu lider əzmi ilə azad olunmuş torpaqları dirçəldir, düşmənin viran qoyduğu kənd və şəhərlərimizə yenidən həyat bəxş edir. Bu baxımdan cənab İlham Əliyevin növbəti müddətə prezidenliyinin ötən 5 ilinin fəxarət doğuran digər hadisəsi Böyük qayıdışın ilk ünvanı olan Zəngilanın Ağalı kəndinin sakinlərinin 30 ilə yaxın həsrətdən sonra öz doğma evlərinə dönüşü oldu.

Prezident İlham Əliyev qətiyyətli siyasəti ilə Vətən müharibəsində yaradılan yeni reallıqların əsaslarını daha da möhkəmləndirir. Dövlət başçısı beynəlxalq müstəvidə Azərbaycanın milli maraq və mənafelərini layiqincə qoruyur, qlobal enerji təhlükəsizliyinin təmini prosesində respublikamızın söz sahibi kimi üstün mövqelərini təmin edir. Tarixinin ən qüdrətli dövlətinə çevrilən müasir Azərbaycanı növbəti illərdə isə daha böyük nailiyyətlər gözləyir.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***

Azərbaycan. - 2023.- 11 aprel.- S.14.